

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 236 (20.890)

17 dekabr 2013-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri qlobal iqtisadi layihələrin önəmi qeyd edildi, dekabrın 17-də "Şahdəniz -2" üzrə yekun investisiya qərarının imzalanmasına həsr olunan tədbirin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Söhbət zamanı Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin uğurla icra olunduğu bildirildi, enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Dekabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Monteneqronun Prezidenti Filip Vuyanoviçin görüşü olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Xorvatiyanın Baş naziri Zoran Milanoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri xanım Malena Mardın etimadnaməsini qəbul etmişdir.

## Ş.İ.Abdullayevə general-leytenant hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri general-mayor Şamı İsmayıl oğlu Abdullayevə general-leytenant hərbi rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 dekabr 2013-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 14 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardır.

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Hüseynov Azadil Əli oğlu

İmanov Kənan Şakir oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Kazımov Vüqar Etibar oğlu

# Ordubad rayonu 2013-cü ili uğurla başa vurur

### *Bunu bölgədə həyata keçirilən tikinti-quruculuq işlərindən daha aydın görmək olar*

*XXI əsrin on üçüncü ili ilə vidalaşmağa hazırlaşırıq. 366 günlük daha bir zaman kəsiyi də tarixə qovuşmaqdadır. 2013-cü il də bağlar diyarı Ordubad rayonunun tarixinə möhtəşəm quruculuq dövrü kimi həkk olunub.*

Cari ilin yanvar-oktyabr aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 48 milyon 611,6 min manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunan investisiyaların həcmi 5,6 faiz artaraq 45 milyon 46,9 min manat təşkil edib. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin inzibati binasının yenidən qurulması, Ordubad şəhərində 242 yerlik uşaq bağçasının, Sabirkənd, Əlahi, Xurs, Nürgüt kənd məktəbləri binalarının, Əlahi və Xurs kəndlərində kənd və xidmət mərkəzlərinin, Nürgütdə xidmət mərkəzinin tikintisi, rayon mərkəzində 2 ictimai yaşayış binasının əsaslı təmiri başa çatdırılıb. Tikintisi davam etdirilən və yenidən qurulan obyektlər də az deyil. Ordubad şəhərində Yusif Məmmədəliyevin ev-muzeyinin əsaslı təmiri, Vənənd kəndində uşaq bağçası binasının, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Rayon ərazisində 2 körpünün, Gənzə kəndinə gedən avtomobil yolunda istinad divarının tikintisi, Biləv-Xurs-Nəsirvaz avtomobil yolunun təmiri aparılıb. Bir körpü, Bist kəndində həkim ambulatoriyası və xidmət mərkəzi, Nəsirvaz kəndində kənd mərkəzi və tam orta məktəb binaları təhvilə hazırdır. İl ərzində rayonun müxtəlif ünvanlarında içməli və təsərrüfat suyuna olan tələbatın ödənilməsi istiqamətində də xeyli iş görülüb. Vələver kəndində içməli su xəttinin çəkilişi və kaptajın tikintisi, Çənnəb kəndində içməli və suvarma su xətlərinin yeni əraziyə köçürülməsi, Ağrı kəndində kəhrizin təmiri başa çatdırılıb. Hazırda Xanağa kəndində içməli su xəttinin çəkilişi, Yuxarı Əylis kəndində kəhrizin təmiri davam etdirilir.

Bəhs olunan dövrdə emal və istehsal sahələrinin qurulması da davam etdirilib. Vənənd kəndində mürəbbə, Aza kəndində elektrik açarları, Azadkənddə kompot istehsalı sahələrinin, Yuxarı Əndəmic kəndində 2, Aza və Vənənd kəndlərinin hər birində 1 istixana kompleksinin, Aşağı Əylis kəndində heyvandarlıq, Üstüpü kəndində arıçılıq təsərrüfatının yaradılması, "Ordubad Quşçuluq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin genişləndirilməsi işləri davam etdirilib. Burada bir məqamı xüsusi vurğulamağa ehtiyac var. Rayon ərazisində inşasına start verilən hər hansı bir quruculuq tədbiri həm də yeni iş yerlərinin açılması sevinci ilə qarşılanıb.

Gülzarlıqlar, yaşıllıqlar, gözəlliklər diyarına çevrilən rayonda həyata keçirilən belə tədbirlər insanların həyata baxışlarını kökündən dəyişdirib. Onların bu proseslərdə fəallığını isə rayonun daha gözəl, daha füsunkar, iqtisadiyyatını gücləndirən bir bölgə kimi görmək istəyinin ifadəsi kimi qiymətləndirmək olar. Bu, doğma Vətənə, onun daha işıqlı sabahına bağlılığın, yurdsevərliyin ən gözəl təcəssümüdür.

✍ **Muxtar MƏMMƏDOV**

## Muxtar respublikanın yaşayış məntəqələrinin 85 faizində genişzolaqlı internet xidməti göstərilir

Muxtar respublikanın telekommunikasiya sistemində yeni nəsil texnologiyaların tətbiqi genişzolaqlı internet xidmətlərinin əhatə dairəsini genişləndirib. Cari ilin 11 ayında Ordubad rayonunun Dizə, Unus, Babək rayonunun Sirab, Didivar, Kərimbəyli, Məzrə, Güznüt, Kültəpə, Culfa rayonunun Xanəgah, Kırna, Dizə, Şahbuz rayonunun Şahbuzkənd, Kəngərli rayonunun Çalxanqala, Qarabağlar, Şərur rayonunun Dərəkənd, Gümüşlü, Alışar, Şahbulaq kəndlərində genişzolaqlı internet xidmətlərinin göstərilməsi üçün DSLAM avadanlığı quraşdırılıb. Bu barədə qəzetimizə məlumat Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidmətindən daxil olub.

Məlumatda o da bildirilib ki, tələbata uyğun olaraq, muxtar respublikanın yaşayış məntəqələri genişzolaqlı internet xidmətləri ilə təmin edilir. Belə ki, Ordubad, Culfa, Şahbuz şəhərlərinə, Ordubad rayonunun Əndəmic, Dəstə, Babək rayonunun Cəhri, Şəkərabad kəndlərinə əlavə olaraq hər birində iki, Ordubad rayonunun Vənənd, Dəstə, Nüsnüs, Culfa rayonunun Əbrəqunus və Yaycı kəndlərinin isə əlavə olaraq hər birində bir DSLAM avadanlığı quraşdırılıb. Hazırda Naxçıvan Muxtar Respublikasının yaşayış məntəqələrinin 85 faizində genişzolaqlı internet xidmətləri göstərilir. Muxtar respublika ərazisində genişzolaqlı internetlə yanaşı, simsiz internet xidmətlərinin göstərilməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, yaşayış ərazilərinin 90 faizində simsiz internet xidməti göstərilir; muxtar respublikada 344 mindən çox internet istifadəçisi var.

Qeyd edək ki, Dünya İqtisadi Forumunun "Qlobal informasiya texnologiyaları – 2013" hesabatına əsasən, ölkəmiz internet istifadəçilərinin say göstəricisinə görə MDB və Orta Asiya ölkələri sırasında liderliyini qorumaqdadır. Bundan başqa, ölkəmiz dünyanın 144 ölkəsi arasında internetin əlçatanlığı göstəricisinə görə 20-ci yerdədir.

# Növbəti sertifikasiya test imtahanı

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Məlum olduğu kimi, bu işə 2011-ci ilin sentyabr ayından başlanmış, təkcə bu ilin ötən 11 ayında 171 həkim şəffaf şəraitdə test imtahanlarını və müsahibə mərhələsini başa vurmuşdur.***

Dekabrın 14-də keçirilən növbəti test imtahanında endokrinologiya, travmatologiya, yoluxucu xəstəliklər, şüa-diaqnostikası, laboratoriya və anesteziologiya-reanimatologiya ixtisasları üzrə həkimlər öz bilik və bacarıqlarını sınamışlar. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilən test imtahanında Səhiyyə Nazirliyi Sertifikasiya Şurasının sədri Nihad Seyidov test imtahanının qaydaları haqqında məlumat vermişdir.

Sonra Sertifikasiya İmtahan Komissiyasının sədri Süleyman Cəfərov çıxış edərək bildirmişdir ki, hazırda dünya tibb elmində çox böyük inkişaf gedir, irəliləyişə nail olunur. Əvvəlki dövrdə müalicə olunmayan xəstəliklər indi artıq müalicə edilir, yeni təfəkkürə, müasir elmi biliklərə yiyələnən kadrlar yetişir. Kadr potensialının gücləndirilməsi istiqamətində ən önəmli addımlardan biri də tibb işçilərinin sertifikasiyasıdır. İndi bütün qabaqcıl ölkələrdə olduğu kimi, muxtar respublikamızda da beş ildən bir imtahan verib sertifikat almayan tibb işçiləri praktik fəaliyyətlə məşğul ola bilməzlər. Mərkəzləşdirilmiş qaydada, obyektiv və şəffaf surətdə keçirilən sertifikasiya tibb işçilərinin öz üzərlərində çalışmasına, həkimlik peşəsinin məsuliyyətini daha dərindən dərk etməsinə imkan yaradır. Bu proseslər muxtar respublikamızda da həkimlərin bilik və peşə bacarıqlarının artırılmasını zəruri edir. Sertifikasiya əhaliyə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılması məqsədilə həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən 16 nəfərə paylanmış, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilmişdir.

Test imtahanının yekunlarına görə, mütəxəssislərdən 6 nəfər 90-100, 8 nəfər 80-90, 1 nəfər 70-80, 1 nəfər isə 60-70 arası bal toplayaraq test imtahanından keçərli sayılmışlar. Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## 158 obyektdə nəzarət-kassa aparatları quraşdırılmışdır

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, 2013-cü ilin 11 ayı ərzində muxtar respublikada fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, habelə işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olunan məsələlər üzrə 127 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilərək müvafiq tədbirlər görülmüşdür.

Qeyd olunan dövr ərzində 158 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması təmin edilmiş, vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 24 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılmış və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 32310,2 manat dövriyyə artımına nail olunmuşdur.

✍ **Səbuhi HÜSEYNOV**

*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasında məhkəmə-hüquq islahatları



***Tarix sübut edir ki, müəyyən səbəblərdən milli dövlətçiliyini və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən xalqlar çətin sınaqlarda məsuliyyəti üzərinə götürmüş qətiyyətli liderlərin sayəsində mövcudluqlarını qorumuş, çətinliklərə sinə gərmiş, milli ideya ətrafında birləşmişlər. Ulu öndər Heydər Əliyev öz xalqına, Vətəninə sonsuz sədaqəti, tükənməz məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin əməyi ilə Azərbaycanın iyirminci əsr ictimai-siyasi, sosial-iqtisadi, mədəni və mənəvi həyatında dönüş yaradaraq ümummilli liderlik ucalığına yüksəlmişdir. Müdrik rəhbər böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.***

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış və ən başlıcası müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin ən böyük nəticəsi xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

1993-cü ildə tale Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə gətirəndə xalqın yeganə xilaskar kimi ulu öndər Heydər Əliyevi hakimiyyətdə görmək istəyi heç də təsadüfi deyildi. Çünki həmin dövrdə Azərbaycan bütünlüklə iflas həddinə çatmışdı, hüquqi dövlət quruculuğu, ədalət və qanunçuluqdan danışmaq isə, ümumiyyətlə, mümkün deyildi. Görkəmli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişi Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Əgər bu həlledici mərhələdə tarixə "Milli Qurtuluş Günü" kimi düşmüş əlamətdar hadisə baş verməsəydi, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı reallaşmasaydı, müstəqil, qüdrətli, günbəgün tərəqqi edən, yeniləşən və demokratikləşən bugünkü Azərbaycan dövləti də var ola bilməzdi.

Ulu öndərin Azərbaycan tarixində ən böyük xidmətlərindən biri də olduqca ağır şəraitdə müstəqilliyimizi xilas etmək, hüquq və ədalətə, demokratik inkişafa əsaslanan güclü dövlətçiliyin əsasını qoymaqdan ibarət olmuşdur. Məhz böyük öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqillik tarixində yeni, real dövlət quruculuğu səhifəsi açılmışdır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuş, ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesinin yeni mərhələsi başlanmışdır. Qısa zamanda müdrik rəhbərin dərin məntiqinin, silinməz dəst-xəttinin, zəngin siyasi təcrübəsinin və işıqlı zəkasının ən böyük bəhrələrindən biri olan Konstitusiya layihəsi hazırlanmış və geniş ictimai müzakirələrdən keçərək 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. Yeni Konstitusiya Azərbaycanda dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açmışdır. Konstitusiya sovet rejiminin institutlarını, dəyərlər kimi xalqın beyninə yeridilən ideologiyaları əbədilik tarixə gömərək demokratik inkişafın möhkəm bünövrəsini qoymuşdur. Həmin dövrdə məhz ulu öndərin Konstitusiyanın hazırlanması işinə rəhbərlik etməsi onun mükəmməlliyini, siyasi-hüquqi akt və tarixi sənəd kimi yüksək nüfuzunu təmin edən amil olmuşdur. Beynəlxalq ekspertlər tərəfindən dünyanın demokratik konstitusiyalarından biri kimi qiymətləndirilən Əsas Qanunumuz Azərbaycanın qanunvericilik müstəvisini dünyanın mütərəqqi, demokratik dəyərləri ilə zənginləşdirməklə ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisinə çevrilmişdir. Məhz bu ali sənəddə sosial dövlət konsepsiyası öz əksini tapmış, Azərbaycan dövlətinin hər bir vətəndaşının rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalındığı bəyan edilmiş, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan edilərək bu hüquq və azadlıqların qorunması dövlət hakimiyyəti orqanlarının əsas vəzifəsi kimi müəyyənləşdirilmişdir.

***"Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik, vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir"***, – deyən ümummilli lider bununla Konstitusiyanın başlıca hədəflərini müəyyən etmişdir.

Konstitusiyanın qəbulundan sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə məhkəmə-hüquq islahatlarının aparılması, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməli qoyulmuşdur.

Böyük öndərin ədalətli idarəçilik sistemi yaratmaq amalı onun məhkəmə-hüquq islahatlarını prioritet məsələ olaraq məqsəd seçməsində özünü büruzə vermişdir. Məhz bu məqsədin nəticəsidir ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə məhkəmə hakimiyyəti anlayışı ilk milli Konstitusiyamızda öz əksini tapmış, Əsas Qanunda məhkəmə hakimiyyətinə verilən səlahiyyətlərə hakimlərin sərbəstliyi və müstəqilliyi daxil edilməklə ölkədə insan hüquqlarının qorunması və məhkəmə sistemində ədalət mühakiməsinin səmərəli təşkili baxımından mütərəqqi addımlar atılmışdır.

***"Biz humanist, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik"***, – deyən ümummilli lider Heydər Əliyev "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" 1994-cü il 9 avqust tarixli Fərmanı ilə respublikada qanunun aliliyinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Ulu öndər Heydər Əliyev 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla insan hüquqlarının təminatı istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyən edilmiş, bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə dahi rəhbər tərəfindən 1998-ci il iyun ayının 18-də xüsusi Sərəncam imzalanmışdır ki, məhz bu sərəncamla "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" hazırlanmışdır. Dövlət proqramında insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrinin təkmilləşdirilməsi məqsədilə qanun layihələrinin hazırlanması, "Prokurorluq haqqında", "Vəkillik haqqında", "Notariat haqqında" qanun layihələri üzrə işlərin tamamlanması, "Azərbaycan Respublikası Milli Təhlükəsizlik orqanları haqqında" qanun layihəsinin hazırlanması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Ulu öndərin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə yaradılmış Hüquq-İslahat Komissiyası tərəfindən işlənib hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmış, insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinə təminat vermişdir.

Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədilə 1998-ci ilin iyul ayında Konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi yaradılmış, 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi fəaliyyətə başlamış, 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edilmişdir.

1998-ci il iyulun 14-dən fəaliyyətə başlayan Konstitusiya Məhkəməsi ölkədə konstitusiya nəzarətini həyata keçirməklə insan hüquq və azadlıqlarına dair konstitusiya müddəalarının düzgün başa düşülməsini, həmin konstitusion normaların tətbiqinə mane olan normativ-hüquqi aktların qüvvədən salınmasını və beləliklə, insan hüquq və azadlıqlarının realizə edilməsi üçün şəraitin yaradılmasını təmin etmişdir.

Konstitusiya normalarının və bu normalar əsasında qəbul edilən aktların həyata keçirilməsinin məntiqi nəticəsi kimi qısa müddət ərzində ölkədə hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilən, insan hüquqlarının daha etibarlı təminatına xidmət edən, müasir tələblərə cavab verən "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və sair qanunlar, Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Vergi, Ailə, Əmək və sair məcəllələr qəbul edilmişdir.

Konstitusiyaya uyğun olaraq, Azərbaycanda demokratiyanın inkişafında yeni bir idarəçilik institutu – bələdiyyələr formalaşmağa başlamış, "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunlar qəbul edilmiş və 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirilmişdir.

Məhkəmə-hüquq islahatlarının məntiqi davamı kimi ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" 19 yanvar 2006-cı il tarixdə Fərman imzalamış, eləcə də 6 fevral 2009-cu il tarixdə "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" qəbul edilmişdir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə aparılan, vətəndaşların hüquq və azadlıqlarının ədalət mühakiməsi yolu ilə qorunması prinsiplərinin inkişafına xidmət göstərən məhkəmə-hüquq islahatları Azərbaycanın bütün regionlarını əhatə etməkdədir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında yuxarıda qeyd edilən qanunvericilik aktları ilə yanaşı, "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının müstəsna rolu vardır. Qeyd edilən fərmanla muxtar respublikada hüquq institutları inkişaf etdirilmiş, hüquq-mühafizə və məhkəmə orqanlarının fəaliyyəti müasirləşdirilmiş, muxtar respublikada fəaliyyət göstərən hüquq-mühafizə və məhkəmə orqanları üçün müasir tələblərə cavab verən inzibati binalar tikilmiş, eləcə də məhkəmə orqanlarının fəaliyyətində yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Ulu öndərin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır. Dahi şəxsiyyətin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Ümummilli liderin Prezidentliyi dövründə respublikamız insan hüquq və azadlıqlarının, eləcə də demokratik təsisatların inkişafı ilə bağlı bir sıra mühüm beynəlxalq-hüquqi sənədlərə qoşulmuş, bütün bunların nəticəsi kimi 1996-cı ildən Avropa Şurasında "xüsusi qonaq statusu" ilə təmsil olunan Azərbaycan 2001-ci ilin yanvar ayında qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilmişdir.

Azərbaycanın hüquqi dövlət və humanizm prinsiplərinə sadiqliyini əks etdirən mühüm hadisələrdən biri Avropa Şurasına üzvlüyə qədər ölkədə ölüm hökmünün ləğv edilməsi olmuşdur. 1993-cü ildə ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 10 fevral 1998-ci il tarixdə ölüm cəzasının tam ləğvi müdrik şəxsiyyətin daxilən yüksək humanizm, insanpərvərlik kimi keyfiyyətlərə malik olduğunun bariz nümunəsidir.

Azərbaycan Respublikasının demokratik inkişaf yolunda irəliləməsi, insan hüquq və azadlıqları ideyasının ölkəmizdə prioritet məsələyə çevrilməsi, cəmiyyətin müasirləşməsi və ictimai şüurda baş verən dəyişikliklər insan hüquqlarının müdafiəsi üzrə mexanizmlər sisteminin genişləndirilməsini, ənənəvi məhkəmə müdafiəsi mexanizmləri ilə müqayisədə daha çevik qeyri-məhkəmə müdafiə vasitələrinin yaradılmasını tələb edirdi. Bu çağırışlara cavab olaraq 2001-ci il 28 dekabr tarixli Qanunla Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı yaradılmışdır.

***Bütün həyatını öz xalqına bəxş etmiş xalqımızın böyük oğlu Heydər Əliyevin dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ulu öndər Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.***

**Sənan QARAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi*

***Kənd həyatı ədəbiyyatımızın hər zaman təsvir edilən obyekti olub. Ədəbi əsərlərdə bir çox təsvir vasitələrinin hədəfi olan bu ünvanlar həmişə təmiz havası, gursulu bulaqları, maraqlı təbiət mənzərələri ilə yaddaşımızda qalıb. Buna görə də istənilən kənd yaşayış yerləri haqqında söhbət açarkən bu təsvir vasitələri bir daha düşüncəmizə hakim kəsilir və o yerləri real görmək istəyi baş qaldırır ürəyimizdə. Şair və yazıçıların qələmindən heç zaman əskik olmayan bu mövzu jurnalistikadan da yan keçə bilməyib. Ancaq ədəbiyyatdan fərqli olaraq, jurnalistika kəndə münasibəti bədiiliklə bərabər, reallıq üzərində də qurmağı bacarır. Elə biz də bu reallığa söykənərək muxtar respublikamızın ən ucqar dağ kəndlərindən biri olan Babək rayonunun Yuxarı Buzqov kəndinə yola düşürük...***

# Gözəl, təbii və məğrur...

Yuxarı Buzqov Babək rayon mərkəzindən 45 kilometr şimalda – Dərələyəz silsiləsinin cənub yamacında yerləşən sərhəd kəndlərimizdən biridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın digər sərhəd kəndləri kimi, Yuxarı Buzqov kəndi də mənfur ermənilərin tez-tez hücumlarına məruz qalmış, lakin kənd düşmən qarşısında məğrur dayanaraq mövcudluğunu qoruyub saxlaya bilmişdir.

Bu kəndin tarixi çox qədimdir. Filologiya elmləri doktoru Adil Bağırova görə, “Buzqov” adının məna açımı haqqında birmənalı fikir söylənilmir. Müxtəlif tarixi dövrləri əks etdirən mənbələrdə bu ad “Bzqov”, “Buzqay” kimi yazılmışdır. Eyni zamanda mənbələrin məlumatına görə, toponimin əsasını “bozqov” komponenti təşkil edir. Alimin fikrincə, bu ad “boz” və peçeneq tayfalarından birinin adı olan “qov” sözlərinin birləşməsindən əmələ gəlib, sonra tədricən fonetik dəyişikliyə uğrayaraq “buzqov” şəklinə düşmüşdür. Ancaq bununla bərabər, “Buzqov” adının qədim midiyalılara aid “bus” qəbiləsinin, oğuzların əsas tirəsi hesab edilən “boz oğ” adına uyğun olduğu da ehtimal edilir.

... Aşağı Buzqov kəndinə qədər uzanan asfalt yolu torpaq yol əvəzləyir. Yamaclarla uzanan yolun digər tərəfi isə dərə yataqları ilə əhatə olunub.

Bir az yol getdikdən sonra üstü qarla örtülü kənd evlərindən bir neçəsi gözümüzə dəyir. İrəlidə rabitə işçiləri ilə qarşılaşırıq, deyəsən, təmir işləri aparırlar. Salamlaşıb yolumuza davam edirik. Nəhayət, bir saatlıq yoldan sonra kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin qarşısında avtomobildən enirik. Bizi gözləyən icra nümayəndəsinin müavini Ağa Əhmədovla hal-əhval tuturuq. Bir az ordan-burdan söhbət etdikdən sonra kəndin dünəni, bu günü ilə bağlı vəziyyəti öyrənməyə çalışırıq. Müsahibim: – Allaha şükür, hər şey yaxşıdır, – deyir. – Hər kəs öz işində-gücündədir. Hələ keçmiş zamanlardan bu kəndin insanları heyvandarlıq, arıçılıq və meyvəçiliklə məşğul olublar. Kəndimiz elə ərazidə yerləşir ki, burada əkin yerləri yalnız dəmyə sahələrdən ibarətdir. O da çox məhdud şəkildə. Yalnız həyətyanı sahələrdə sakinlər özləri üçün müxtəlif əkinlər apara bilirlər. Ancaq buna baxmayaraq, kəndimiz arıçılığın inkişafı üçün çox gözəl məkanlardan biridir. Hazırda kənddə 1100 arı ailəsi mövcuddur. Bununla yanaşı, 50 baş iribuynuzlu, 400 başa yaxın xırdabuynuzlu heyvan da saxlanılır.

Müsahibimiz qeyd edir ki, kənddə elə bir ailə yoxdur, arıçılıqla məşğul olmasın. Arıçılıq bu yerlərdə yaşayanların dədə-baba peşəsi olub. Arıçılardan Nizami Elyazovun və Sevindik Sadiqovun hər birinin 40-50 arı ailəsi var. Bu yerlərin balı da yaxşı olur.

Söhbətin bu yerində həmsöhbətimiz bir az aralıdakı həyətin darvazası önündə dayanmış ağsaçlı nurani bir kişini göstərərək, – atamdır, – deyib əlavə etdi: – Bir az bundan əvvəl demişəm, qonağım olacaq, ona görə də bizi gözləyir. Gedək söhbətimizə evdə davam edək, – deyə bildirir.

Yavaş-yavaş həyətə doğru irəliləyirik. Salamlaşıb özümüzü təqdim edirik. “Adım Məhərrəmdir”, – deyə ağsaçlı nurani kişi dillənir və əli ilə evin yolunu göstərir. Birlikdə həyətə keçirik və evə tərəf addımlayırıq. Həyətdə iki ev var. Məhərrəm dayı deyir ki, o ev mənim (əli ilə qarşı tərəfi göstərir), oturduğumuz bu ev isə qardaşımındır. O zaman tikəndə yanaşı tikmişik. Sovet dövründə ev tikmək çətin olub, xüsusilə bizim kənddə. Birinci ona görə ki, material qıtlığı var idi, birini alırdın, o birini tapa bilmirdin. İndi, şükürlər olsun, hər şey var. İkinci çətinlik ondan ibarət idi ki, kəndin relyefi çox mürəkkəbdir. Evlərin əksəriyyəti yamacda yerləşdiyindən həyətlər mailidir. Bu da hər hansı tikinti materialının daşınmasına çətinliklər yaradır. Ona görə də evləri yanaşı tikdik ki, bir-birimizə daha yaxından kömək edə bilək.

Məhərrəm dayıdan yaşını soruşuruq: – 81 yaşım var. Sovet dövründə kolxozda işləmişəm, o zaman da arıçılıqla məşğul olmuşam, indi də. Bu yerlərin yaxşı balı olur. O da ondan irəli gəlir ki, burada əkinçilik təsərrüfatı zəif olduğundan arılar ancaq dağ çiçəklərindən nektar toplamağa məcburdurlar. Bu cür çiçəklərdən toplanmış nektar isə bala xüsusi bir dad verir.

Ev sahibəsi Gülxanım Əhmədova tezliklə yaxşı bir çay süfrəsi açır, haqqında bəhs etdiyimiz baldan da ortaya qoyur. Məhərrəm dayıdan “Bu kənd daha nəyi ilə məşhurdur?” – deyə soruşuruq. Müsahibimiz qeyd edir ki, Yuxarı Buzqov kəndi balından savayı, həm də cəvizi, alması ilə məşhurdur:

– Düzdür, kəndimizdə digər meyvə ağacları da var. Ancaq Yuxarı Buzqovun cəvizi və ya alması indi bazarda adla çağırılır. Sanki bunların tamında nə isə ayrı bir dad var.

Təbii ki, kəndin ağır günlərindən də danışırıq. 81 yaşlı nurani kişi məlum hadisələr zamanı ermənilərin kəndi dəfələrlə atəş altında saxlamağından söhbət açır. Əli ilə kəndin şimal hissəsində səngərlərin yerləşdiyi yüksəklikləri göstərərək deyir: – Həmin illər bu ərazilərdə güclü döyüşlər olub. Şəhid olan, yaralanan hərbçi və mülki vətəndaşlarımız olub. Hər gün kənd sakinləri səngərdə növbə ilə keşik çəkiblər. Ancaq daha heç bir nigarançılığımız yoxdur. Çünki indi kəndimizi ordumuzun əsgərləri qoruyurlar. Yeri düşmüşkən qeyd edim ki, əslən Qaraxanbəyli kəndindən olan, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Mirəsgər Seyidov 1992-ci ildə Yuxarı Buzqov kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Bizi gözəl çay süfrəsinə qonaq edən 70 yaşlı Gülxanım nənəni də söhbətə çəkmək istəyirik. Özü deməsə də, Ağa müəllim əmisinin ömür-gün yoldaşının bir zamanlar kənddə yaxşı xalça toxuyanlardan biri olduğunu bildirir. Gülxanım Əhmədovanın dediklərindən:

– Xalça toxumağa 15-16 yaşlarından başlamışam. O zamanlar, demək olar ki, kənddə əksər evlərdə xalça, gəbə, palaz toxunardı. Gündüzlər çöl işlərində çalışsaq da, axşamlar hər gün xalça toxuyardıq. Övladlarıma da toxumağı öyrətmişdim. Həmin vaxtlar toyu olacaq qızlara cehiz olaraq xalça vermək adəti vardı. Mən də övladlarımın hamısına belə xalçalar toxuyub vermişəm. Yaxın qohuma və ya ehtiyacı olan birisinə də toxuyardıq. İndi bu xalçaların yerini fabrik istehsalı olan ucuz xalçalar tutub. Əl zəhməti, göz nuru ilə toxunan xalıları heç nə ilə əvəz etmək olmaz. Bunlar həm də insan sağlamlığına verdiyi fayda ilə, keyfiyyəti və uzunömürlüyü ilə seçilir. Çox istərdim, elə şərait yaransın ki, bu xalçalar yenə toxunsun, valideynlər övladlarına bunlardan yenə cehiz bağlasınlar.

Müsahiblərimizlə xeyli söhbət edirik. Kəndin dünənindən bu gününə, bu günündən sabahına uzanan bu maraqlı söhbəti ev sahiblərinə minnətdarlığımızı bildirməklə sona yetiririk. Kəndə gəlmişkən buradakı orta məktəbə də baş çəkirik. Məktəbin direktoru Abbas Ələkbərovun verdiyi məlumata görə, Yuxarı Buzqov kənd tam orta məktəbi 2001-ci ildə tikilərək istifadəyə verilib. Binada kənd həkim ambulatoriyası da yerləşir. Hazırda məktəbdə 18 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 16 müəllim məşğul olur. Məktəbdə 1 elektron lövhəli sinif, 2 kompüter dəsti var. Maraqlı faktlardan biri də odur ki, ötən tədris ilində buraxılış sinfini 1 nəfər bitirmiş və həmin məzun – Allahverdiyeva Nurşən Şəmsi qızı qəbul imtahanlarında 587 bal toplayaraq tələbə adına layiq görülmüşdür. 2013-2014-cü tədris ilində isə buraxılış sinfindən 4 şagird məzun olacaq. Məktəb direktoru bundan əvvəlki illərdə də məzunların yüksək nəticələrlə tələbə adını qazandığını qeyd edir. Biz də, öz növbəmizdə, məktəbin kollektivinə uğurlar arzulayıb oradan ayrılırıq.

Yol boyu Ağa Əhmədovla kənd haqqında söhbətimiz davam edir. Müsahibimiz vurğulayır ki, kənddə hər ev içməli su ilə təmin olunub. İki kilometr aralıda yerləşən Bulaqlarbaşından, Əlişin bulağından, Cəbi bulağından kəndə su xətti çəkilib. Bu il kənddə məhsul da yaxşı olub. Hər həftənin şənbə-bazar günləri kənd sakinləri əldə etdikləri meyvəni, balı, pendiri və digər məhsulları Naxçıvan şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkasına çıxarırlar. Kəndin təbii qaz və elektrik enerjisi ilə təminatında da heç bir problem yoxdur. Rabitə xidməti yüksək səviyyədə təşkil olunub. Kənddəki bütün evlər telefonlaşdırılıb. Qış mövsümünə hazırlıq işləri artıq başa çatıb. Kəndin elektrik və rabitə xətlərində cari təmir işləri aparılıb, qaz borularına baxış keçirilib, sayğacların işlək vəziyyətdə olmasına diqqət artırılıb. Bir sözlə, qışın sərt keçəcəyi heç kimi qorxutmur.

Artıq bayaqdan bəri bizi müşayiət edən Ağa müəllimlə də sağollaşmaq vaxtı gəlib çatır. Həmsöhbətimizə bir daha minnətdarlıq edib kənddən ayrılırıq.

**Bəli, ədəbi əsərlərdə bir çox təsvir vasitələri ilə təsvir və tərənnüm edilən kənd mövzusu həmişə təmiz havası, gursulu bulaqları, maraqlı təbiət mənzərələri ilə xatırlanır. Yuxarı Buzqov kəndi isə bu mövzunu zənginləşdirərək həm də məğrur görünüşü, zəhmətkeş, qonaqpərvər, yurduna bağlı insanları ilə yaddaşımıza yazıldı. Salamat qal, dağ kəndi. Sənin haqqında hələ çox yazılacaq... Həm də gözəl təsvirlərlə...**

**Səbuhi HƏSƏNOV**

## Qış fəslində əhalinin fasiləsiz nəqliyyatla təmin edilməsinə hərtərəfli şərait yaradılıb

***Bu il avqust ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Nəqliyyat Nazirliyinə müvafiq tapşırıqlar verilmiş, mövsümdə nəqliyyat xidmətinin yüksək səviyyədə təmin edilməsi məsələləri geniş müzakirə edilmiş, şəhərdaxili və kəndlərarası nəqliyyatda olan avtobus və mikroavtobusların texniki sazlığının tam nəzarətdə saxlanılması bir vəzifə kimi qarşıya qoyulmuşdur.***

Bu məqsədlə nazirlikdə daimi komissiyaların – payız-qış mövsümünə hazırlıq komissiyası və reyd komissiyasının fəaliyyəti daha da artırılmış, tədbirlər planının icrasına başlanmışdır. Plana əsasən, qış mövsümündə əhalinin fasiləsiz və təhlükəsiz nəqliyyatla təmin edilməsi, yol-nəqliyyat kompleksində baş verə biləcək hər hansı bir çatışmazlığın vaxtında aradan qaldırılması üçün Nəqliyyat Nazirliyi, habelə onun tabeliyində və strukturunda olan Naxçıvan Şəhər Nəqliyyat İdarəsi, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti, Beynəlxalq Hava Limanı, Naxçıvan Avtomobil Yolları Dövlət Şirkəti tərəfindən kompleks tədbirlər həyata keçirilmişdir.

Naxçıvan, Şərur, Culfa, Şahbuz və Ordubad şəhərlərindəki avtovağzallarda, eləcə də Naxçıvan Avtobus Parkında sərnişindaşıma ilə məşğul olan avtobus, mikroavtobus və taksilərdə daxili qızdırıcı sistemlərin işlək vəziyyətə gətirilməsi və avtonəqliyyat vasitələrində köhnəlmiş şinlərin yeniləri ilə əvəzlənməsinə xüsusi diqqət yetirilmişdir.

Eyni zamanda Bakı-Naxçıvan və Naxçıvan-Bakı marşrutu üzrə işləyən avtobusların yenilənməsi üçün müvafiq şirkətlərlə müqavilə bağlanmışdır. Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslardan birinin Şərur və Culfa şəhərlərindəki avtovağzallardan yola salınması işi təmin olunmuş, Şahbuz və Ordubad şəhərlərindəki avtovağzallarda isə Naxçıvan-Bakı marşrutuna bilet satışı təşkil edilmişdir.

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətində payız-qış mövsümünə hazırlıqla əlaqədar elektrovoz, teplovoz və sərnişin vaqonlarına texniki baxış keçirilmiş, vaqonların istilik sisteminin yoxlanılmasına, ehtiyatların artırılmasına diqqət gücləndirilmişdir. Lokomotivlərin və sərnişin vaqonlarının mövsümə hazırlığı ilə əlaqədar tələb olunan ehtiyat hissələri və 25 ton sürtgü yağı tədarük edilmiş, nasaz vəziyyətdə olan teplovoz təmir edilərək hazır vəziyyətə gətirilmişdir. Bundan başqa, istilik sistemləri ilə işləyən vaqonların normal qızdırılması üçün 93 ton daş kömür ehtiyatı yaradılmışdır.

Naxçıvan Beynəlxalq Hava Limanı qış mövsümündə uçuşların təhlükəsizliyinin təmin olunması üçün bütün elektrik sistemlərinin, rabitə qurğularının, maşın-mexanizmlərin texniki baxışını həyata keçirmişdir. Həmçinin sıradan çıxmış avadanlıqların yeniləri ilə əvəz olunması işi başa çatdırılmış, mal-material ehtiyatı yaradılmışdır.

Naxçıvan Avtomobil Yolları Dövlət Şirkətində qış mövsümündə işləyəcək avtomaşın və yol texnikasının saz vəziyyətə gətirilməsi işlərinə diqqət artırılmışdır. Belə ki, şirkətin balansında olan 11 ədəd avtoqreyder, 27 ədəd özüyükünüboşaldan avtomaşın, 9 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 7 ədəd ekskavator və 4 ədəd avtoyükləyici işlək vəziyyətə gətirilmişdir. Magistral yollarda işləyəcək avtoqreyderlərə asfalt-beton örtüyünün dağılmaması üçün rezin bıçaqlar tədarük edilmiş, avtomobil yollarının buzdan təmizlənməsi məqsədilə qum tədarük olunmuş, tədarük olunan 2000 kubmetrdən çox Şorsu materialının yerlərə paylanması işi başa çatdırılmışdır.

Bütün bunlar onu deməyə əsas verir ki, muxtar respublikanın nəqliyyat kompleksi qış mövsümünə tam hazırdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Aqrar sahənin inkişafı etibarlı ərzaq təminatında başlıca vəzifədir

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Bəxtiyar Mahmudovdan aldığımız məlumata görə, rayonda aqrar sahənin inkişafı diqqət mərkəzində saxlanılır. Bölgə sakinləri məhsuldar torpaq sahələrində, əsasən, əkinçiliyi və bağçılığı inkişaf etdirirlər. Rayonda taxılçılığa maraq ildən-ilə artır. Başa vurduğumuz təsərrüfat ilində Sədərəyin torpaq mülkiyyətçiləri 1146 hektarı buğda, 982 hektarı arpa olmaqla, 2128 hektar sahədən 6142 ton taxıl tədarük ediblər. Hektarın orta məhsuldarlığı 28,9 sentnerə çatdırılıb. Rayonun iqlim şəraiti burada kartofçuluğun inkişafı üçün çox əlverişlidir. Bunu nəzərə alan torpaq mülkiyyətçiləri onlara məxsus olan sahələrin böyük hissəsində kartof əkib- becərirlər. Bəhs olunan dövrdə rayon üzrə 95 hektar kartof əkini sahəsindən 1795,5 ton məhsul götürülüb. Onu da qeyd edək ki, rayonun 476 torpaq mülkiyyətçisinə 2013-cü ilin əkinləri üçün 483 min 500 manat kredit verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində rayonda həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərir. Məlumat üçün bildirək ki, bu proqramın qəbulundan ötən müddət ərzində rayonda iməciliklər yolu ilə bağ sahələri 5,5 hektar artırılıb. Meyvəçilər üçün cari ili uğurlu saymaq olar. Belə ki, ümumilikdə, 84,5 hektar meyvə bağı olan bölgədə 79 hektar məhsul verən sahədən 586,4 ton məhsul götürülüb.

Sədərəklilər tərəvəzçilikdə də yaxşı təcrübəyə malikdirlər. Başa çatmaqda olan təsərrüfat ilində onlar 412 hektar sahədən 4861,6 ton tərəvəz tədarük ediblər.

Rayonda son illər üzümçülüyün inkişafına da diqqət artıb. Bunun nəticəsidir ki, ötən illərdə salınmış 222 hektar üzüm bağından 1288 ton məhsul götürülüb.

**Xəbərlər şöbəsi**

## Su ehtiyatlarının inteqrasiyalı idarə olunması mövzusunda təlim kursu

Azərbaycan Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi "Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində növbəti təlim kursunun keçirilməsinə başlanılıb. "UNİCHECK" Məhdud Məsuliyyətli Cəmiyyətinin iştirakı ilə "Su ehtiyatlarının inteqrasiyalı idarə olunması" mövzusunda keçiriləcək təlim kursunun açılış mərasimində universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək universitetdə müxtəlif mövzulara həsr olunmuş bir neçə təlim kursunun uğurla reallaşdırılmasından bəhs edib. Qeyd olunub ki, regionun bütün dövlət strukturlarının və nazirliklərin əməkdaşlarını, habelə universitetin müvafiq ixtisaslar üzrə müəllim və tələbələrini əhatə edən bu təlim kursları kadr hazırlığı baxımından mühüm əhəmiyyət kəsb edir.

Ekspert-təlimçi, "UNİCHECK" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Aytən Poladova, su ehtiyatları mühəndisi, hidroloq Dr. Laszo İritz çıxış edərək bu sahədə mövcud dünya təcrübəsi, təlim kursunda bəhs olunacaq mövzular barədə məlumat veriblər.

İngilis dilində keçiriləcək təlim kursu 6 gün davam edəcək.

**Mina QASIMOVA**

## Müəmmalı stadion dəyişikliyi və hakim ədalətsizliyi

### *Buna baxmayaraq, "Araz-Naxçıvan" yenə irəlidədir*

***Futbol üzrə Azərbaycan I divizionunun 14-cü turunun mərkəzi qarşılaşmasında dekabrın 15-də "Araz-Naxçıvan" futbol komandası "Neftçala" futbol komandasının qonağı oldu. Son iki mövsümdə çempionatda çıxış edən və mükafatçılar sırasında olan Neftçala təmsilçisi ilə muxtar respublika klubu arasındakı qarşılaşma, gözlənildiyi kimi, gərgin mübarizə şəraitində keçdi. Meydan sahiblərinin ikinci hissədə nadir hücumlarından biri qolla nəticələnincə komandamız meydandan 1:0 hesabı ilə məğlub ayrıldı.***



***Stadion niyə dəyişdirildi?***

Bu matça marağın hədsiz dərəcədə çox olacağı öncədən bəlli idi. Ancaq "Neftçala" futbol klubunun oyunu Bakıya keçirməsi gözlənilməz oldu. Görüşlərin təqvimi açıqlanarkən Azərbaycan Peşəkar Futbol Liqası "Neftçala"-"Araz-Naxçıvan" matçının keçiriləcəyi yer kimi Nəriman Nərimanov adına Neftçala Şəhər Stadionunu göstərmişdi. Ancaq oyuna saatlar qala qurum meydan sahiblərinin ərizəsi əsasında oyunun keçirilmə yerində dəyişiklik etdi. Onsuz da doğma arenası bilinməyən Neftçala təmsilçisi matçın "Bayıl Arena"da baş tutmasına müvəffəq oldu. Öncədən qeyd edək ki, bu stadion süni örtüklüdür və son bilgilərə görə, neftçalalılar məhz Naxçıvan təmsilçisi ilə görüşə elə bu stadionda hazırlaşıblar. Maraq doğuran fakt isə "Neftçala"nın çempionat başlamazdan öncə PFL-ə təqdim etdiyi iki stadion arasında bu arenanın adının bəlli olub-olmamasıdır. Elə oyuna saatlar qalmış qar səbəbindən açıqlanan bu qərardan sonra gərginliyin siqnal təbilləri vurulmağa başlamışdı.

"Araz-Naxçıvan" üçün bu oyun böyük əhəmiyyət kəsb edirdi. Çünki yeni toplaşarkən komandamız elə ilk yoldaşlıq matçını "Neftçala"ya qarşı keçirmiş və komandalar meydandan "sülh"lə ayrılmışdılar (1:1). Səfərdə rəqibləri üzərində, adətən, qorxmadan hücum futbolu oynayan muxtar respublika klubu bu görüşə də eyni əhval-ruhiyyə ilə çıxmışdı. "Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Əsgər Abdullayev bu dəfə heyətdə bəzi dəyişikliklər etmişdi ki, bunun da səbəblərindən biri kapitan Emin İmaməliyevin zədəli olması idi. Üstəlik, oyunun başlamasına az müddət qalmış Bəxtiyar Soltanovun da ayağında ağrılar hiss etməsi Ə.Abdullayevi qayğılandırırdı. Buna baxmayaraq, o, yenə öz taktikasına üstünlük verməklə oyunun hakimi idi.

"Neftçala"da isə əsas hücumçu Ceyhun Abdullayevin zədəli olması, Samir Abdulovun müəyyən olmayan səbəblərə görə meydana çıxmaması hamını təəccübləndirdi. Bununla yanaşı, rəqibin heyətində Orxan Məmmədov və Timur Dadaşov da oyuna ehtiyat oyunçular skamyasında başlamalı oldular.

***Hakimin "havada uçan" qırmızı vərəqələri***

Öncədən bildirək ki, bu oyunun taleyini "Araz-Naxçıvan" elə ilk hissədəcə həll edə bilərdi. Oyuna sürətli başlayan komandamız artıq 10 dəqiqə ərzində rəqib qapısı önündə iki təhlükəli vəziyyət yarada bilmişdi. Əvvəlcə David Canıyev, daha sonra isə Elmin Çobanov qapını dəqiq nişan almayınca tablodakı sıfırlar dəyişməz qaldı. Rəqib heyətində Qasan Qasanovun sürətli oyunu isə diqqətdən yayınmırdı. Epizodların birində onun uzun reydindən sonra komanda yoldaşları bu hücuma qeyri-dəqiq vuruşla son qoydular. Oyunun ilk yarım saatının tamamında "Araz-Naxçıvan" futbol komandasının heyətində məcburi dəyişiklik oldu. Belə ki, zədələnən Bəxtiyar Soltanov yerini Rəhman Musayevə verdi. Hücumçumuzun meydana daxil olması hücum xətindəki aktivliyi bir qədər də artırdı. Belə hücumların birində topla cərimə meydançasına daxil olan Elmin Çobanov qapını dəqiq nişan ala bilmədi. Az sonra Rəhman Musayev adını qol vuranlar siyahısına yazdıra bilərdi. Di gəl ki, onun zərbəsi də qapıdan aralı keçdi. İlk hissədə, demək olar ki, ərazi üstünlüyünə malik olan naxçıvanlılar rəqib qapıçı Tural Abbaszadəni keçə bilmədilər. Hakim Fariz Yusifovun fiti isə ilk hissənin sonunu bildirdi.

Hakimdən söz düşmüşkən, ilk hissədə onun tez-tez fit çalması futbolçuların oyununa da təsir göstərirdi. Bununla yanaşı, hər epizoda reaksiya verən referi vərəqə göstərməyi də unutmurdu.

İkinci hissə də komandamız üçün yaxşı başladı. Tam olaraq oyunun gedişatını ələ alan "Araz-Naxçıvan" 54-cü dəqiqədə matçdakı ən təhlükəli epizodu fövtə verdi. Komanda yoldaşından ideal ötürmə alan Rəhman Musayev qapıçı ilə təkbətək qalsa da, topu qapıdan aralı vurdu. Ardınca isə David Canıyevin zərbəsi təhlükəli alınsa da, top qapıdan keçmədi. "Neftçala"nın sağ cinahdan cərimə meydançasına havalandırdığı topa toxunan futbolçular qapımıza yol tapmaq istədilər. Ancaq Mikayıl Rəhimov topu qapı önündən uzaqlaşdırınca hakim künc zərbəsini göstərdi. Edilən asmada hamını qabaqlayan rəqib futbolçu Mübarək Şahquliyev 65-ci dəqiqədə hesabı açdı. Onun bu qolu matçda gərginliyi daha da artırdı. Görüşün 73-cü dəqiqəsində "Neftçala" futbolçusu Tanrıverdi Məhərrəmli hakimi təhqir etdiyinə görə meydandan qovuldu. Azlıqda qalan meydan sahibləri oyun vaxtının bitməsi prinsipi ilə oynamağa başladılar. Buna etiraz edincə isə meydanda yenə ara qarışdı. 79-cu dəqiqədə isə hakimin yenə qırmızı vərəqələri havada uçuşdu. Futbolçumuza qarşı nalayiq ifadələr işlədən "Neftçala" futbolçusu Aslan Hüseynov birbaşa qırmızı vərəqə ilə cəzalandırıldı. Ancaq referinin qərarı bununla bitmədi. Fariz Yusifov Aslanla mübahisə edən Eşqin Quliyevi də eyni halla üzləşdirdi.

Hücumlarına ara verməyən Naxçıvan təmsilçisi 81-ci dəqiqədə yenə "status-kvo"nu bərpa edə bilərdi. Bu dəfə də səhnəyə Rəhman Musayev çıxdı. Onun başla zərbəsini qapıçı son anda çölə çıxardı.

Qırmızı vərəqə verilən məqamlarda uzun müddət oyun dayansa da, bunu hakim, deyəsən, nəzərə almamışdı. Matçın əsas vaxtına əlavə edilmiş 5 dəqiqə "Araz-Naxçıvan" rəsmilərini əsəbiləşdirdi. Oyunun ikinci hissəsində oyun, ümumilikdə, 9 dəqiqə dayansa da, Fariz Yusifovun bu qərarı müəmmalı olaraq qaldı. Buna etiraz edilsə də, referi fikrindən daşınmadı. Bununla, "Araz-Naxçıvan" cari mövsümdə ilk dəfə olaraq meydanı məğlub tərk etdi və Azərbaycan futbolunda hakim "qurbanı" olan komandalar siyahısına düşdü.

Buna baxmayaraq, komandamız 37 xalla liderliyini davam etdirir. İlk dövrənin sonuncu turunda "Araz-Naxçıvan" futbol komandası doğma arenada "Qaradağ-Lökbatan" futbol komandasını qəbul edəcək.

**✍ Ceyhun MƏMMƏDOV**

## "Tarixdə Səfəvilər: reallıqlar və müasir baxış" mövzusunda tədbir keçirilib

***Naxçıvan Özəl Universitetinin Humanitar elmlər kafedrası və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Tarixdə Səfəvilər: reallıqlar və müasir baxış" mövzusunda diskussiya keçirilib. Diskussiyada universitetin tarixçi müəllimləri ilə yanaşı, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin əməkdaşları və tələbələri də iştirak ediblər.***

Diskussiyanı giriş sözü ilə açan Naxçıvan Özəl Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli belə tədbirlərin keçirilməsinin tələbələrin biliklərinin daha da artırılmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Elmi diskussiyada çıxış edən Naxçıvan Özəl Universitetinin Humanitar elmlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb. Qeyd edilib ki, son dövrlərdə cəmiyyətdə xüsusilə aktual olan mövzuya bəzən məqsədli, bəzən isə məqsədsiz şəkildə qeyri-peşəkar və dilетant yanaşmalar Azərbaycan tarixinin ən şərəfli dövrlərindən biri olan Səfəvilər dövrü ilə bağlı ictimai rəydə çaşqınlıq yaradır. Diskussiyanın məqsədi də gənclərimizə milli tariximizin həqiqətlərini anlatmaq, onların mövzu ilə bağlı fikirlərini öyrənmək və mütəxəssislərin dili ilə məsələyə aydınlıq gətirməkdir.

Sonra Səfəvilər dövlətinin tarixi ilə bağlı film nümayiş etdirilib. Kafedranın laborantı Cəbi Quliyev son dövrlərdə həm ölkə daxilində, həm də xarici ölkələrdə Səfəvilərlə bağlı səsləndirilən elmi və diletant yanaşmalarla bağlı bəzi sitatları diskussiya iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə, Naxçıvan Özəl Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli, tərbiyə işləri üzrə prorektor Əli Yusifov, Humanitar elmlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev, tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanlı, universitetin müəllimlərindən Rövşən İsmayılxanlı, Qənirə Əsgərova, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi Elnur Kəlbizadə Azərbaycan Səfəvilər dövlətinin tarixi ilə bağlı müxtəlif mənbələrdən gətirilən faktlar əsasında Səfəvilər dövlətinin tarixinə müasir baxışın necə olmalı olduğu haqqında fikirlər irəli sürüblər. Diskussiyada tələbələrin sualları cavablandırılıb.

**Nuray ƏSGƏROVA**



***"Dicovery Azerbaijan" elmi-kütləvi turizm jurnalının noyabr-dekabr aylarında çıxan 15-ci nömrəsində Naxçıvanla bağlı bir sıra maraqlı məqalələr təqdim edilib. Jurnalın redaksiya heyəti bu sayda oxucularla birlikdə Nuhun əfsanəvi torpağına – Naxçıvana virtual səfərə çıxır. Bu qədim diyarda orta əsrlərin yadigarları olan möcüzəli tarixi abidələri, dahi Əcəmi Naxçıvaninin yaratdığı XII əsr memarlığının ən gözəl nümunələri, Əshabi-Kəhf möcüzəsini anladan rəvayət haqqında məlumat verən, Batabat, Gəmiqaya, Haçadağ haqqında danışılan jurnalın bu sayında, ümumilikdə, Naxçıvanla bağlı 3 məqalə və onlarla fotoşəkil təqdim olunub. Jurnalın üz qabığının ön hissəsində Naxçıvandakı Xan sarayının güzgülü salonunun, arxa hissədə isə Əshabi-Kəhf mağarasının yerləşdiyi dağların fotosu yerləşdirilib.***

## "Discovery Azerbaijan" jurnalı Naxçıvanı "kəşf etdi"

"Gözdən uzaq, könüldən yaxın: Nuhun izi ilə…" adlı ilk məqalədə müəllif Rəna Kərimova "Tıxaclardan və səs-küydən uzaq şəhər", "Yumurta sarısı ilə tikilən sevgi abidəsi", "Başları kəsilən qoçların aqibəti", "Kimlər gəldi, kimlər keçdi bu saraydan?", "Tanrının kitabında adı keçən məkan", "Həcc ziyarətinə bərabər sayılan Əshabi-Kəhf", "Qaynayan bulaq", "Batabat da gözəldir!", "Nuhun məskəni olan şəhər", "Nəqşicahan xalçaları", "Naxçıvanın ilk muzeyi" başlıqları altında Naxçıvanın təbii gözəllikləri, tarixi qədimliyini, mədəni zənginliyini, inanc müqəddəsliyini təsvir edib, bugünkü Naxçıvanın inkişafına və tərəqqisinə işıq salıb. Bu məqalədə müəllifin xüsusilə bir qeydi diqqət çəkir: "Yolunuzu buradan salsanız, geniş və müasir yollarda özünüzü Avropanın kiçik şəhərlərindən birindəki kimi hiss edəcəksiniz". Naxçıvanı gəzdikdən, öz gözləri ilə gördükdən sonra müəllifin gəldiyi nəticə də maraqlıdır: "Naxçıvana gedərkən mətbuatdan oxuduqlarımız, ayrı-ayrı insanlardan eşitdiklərimiz bizdə müəyyən mənada yanlış təsəvvürlər formalaşdırmışdı. Amma gördüklərimiz oxuduqlarımızdan tamamilə fərqli oldu. Qayda-qanunun hökm sürdüyü, səliqəli, təmiz şəhər, müasir yollar, üslubu ilə tarixi binanı xatırladan birbirindən gözəl tikililər, yaşıllıqlar, qonaqpərvər insanlar və sair və ilaxır… Siz də qərəzli yazarların qələmindən çıxan yazılardakı oxuduqlarınıza, dili həqiqətə uyuşmayanlardan eşitdiklərinizə deyil, gözlərinizə inanın, Nuhun məskəni Naxçıvanı özünüz kəşf edin".

Jurnalda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli ilə "Naxçıvan qəlbimdə hər an!" başlıqlı müsahibə də xüsusi maraq doğurur. Müsahibədə alimin Naxçıvanla bağlı düşüncələri, Naxçıvanın dünəni və bugünkü inkişafının müqayisəsi, bu diyarın tarixi və turizm ehtiyatları, buradakı elmi mühitlə bağlı fikirləri öz əksini tapıb.

Jurnalda Naxçıvanla bağlı təqdim olunan sayca üçüncü məqalə isə "Yaranıza duz basın!" adlanır. Bu məqalədə müəllif Naxçıvanın unikal iqlimi, möcüzəvi duz mağarası, duzun müalicəvi xüsusiyyətləri, Duzdağ Fizioterapiya Mərkəzində müalicə üsulları haqqında ətraflı məlumat verib.

**✍ Elnur KƏLBİZADƏ**


***İtmişdir***

İbrahimov Səfər Abbas oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.



***Allah rəhmət eləsin***

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Tünzalə Hacıyevaya, əzizi

**MƏHƏRRƏMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



**ŞƏRQ** *qapısı*

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Elnur Kəlbizadə**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 3940. Sifariş № 1134**